**“Səs”.**-2011.-22 sentyabr.-N 173.-S.4.

**Bu yol müstəqillik yoludur**

**Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq şansı qazandı. 1918- ci ildə Şərqdə qurulmuş həmin ilk demokratik cümhuriyyət cəmi 23 ay yaşadı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına imkan verdi ki, öz müstəqilliyini yenidən bərpa etsin.**

Azərbaycanın müstəqillik yolunda atdığı ilk addım 1991-ci il avqustun 30-da Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında” bəyannaməni qəbul etmək olmuşdur. O zaman Konstitusiya Aktı layihəsinin iki həftə müddətində hazırlanması barədə qərar qəbul edilmişdi. Respublika rəhbərliyi bu prosesi iki aya yaxın ləngitməyi bacarmışdı. Beləliklə, 1991-ci ilin payız ayları idi. Meydanlar kükrəyirdi. Azadlığın yaxınlaşdığını duyan xalq öz əzəli və əbədi arzusuna qovuşmaq, həmin tarixi anı tezləşdirmək üçün hər şeyə hazır idi. İmperiyanın tankları da artıq şəhid və qurbanlar verən Azərbaycan xalqını qorxuda bilmir, və millətimiz addım-addım, inadla müstəqilliyə doğru gedirdi... Və nəhayət, 1991-ci ilin 18 oktyabrında xalqımız qanı, canı bahasına öz müstəqilliyini əldə etdi və Azərbaycanın tarixində yeni eranın başlanğıcı qoyuldu. Müstəqilliyin başlıca şərti odur ki, sabitliyi, tarixi, dövlətçilik ənənəsi olan dövlətlər onu tanısın. Avqust hadisələrindən sonra Azərbaycana qədər bir sıra başqa dövlətlər müstəqilliklərini bəyan etmişdilər. Amma Baltikyanı ölkələrdən sonra heç bir dövlətin müstəqilliyi tanınmamışdı. İlk olaraq SSRİ içərisində müstəqilliyi başqa dövlətlər tərəfindən tanınan ölkə Azərbaycan olmuşdu və iftixarla demək olar ki, bu dövlət yeni əsrin III minilliyin astanasında dünya birliyində özünün layiqli yerini tutmaqdadır.

Lakin onu da unutmamışıq ki, min bir əziyyətlə əldə etdiyimiz müstəqilliyimizi səriştəsiz iqtidarların hakimiyyət və kürsü davası üzündən yenə itirə bilərdik. Bu gün qətiyyətlə demək olar ki, dünya şöhrətli siyasətçi Heydər Əliyev öz qüdrətli çiyinlərini Azərbaycanın dövlət müstəqilliyini əbədi etmək kimi ağır bir yükün altına verməsəydi, ikinci milli dövlətimizin aqibəti də birincisi kimi, bəlkə də daha ağır və faciəli olacaqdı. Bu fikiri belə bir sadə müqayisədən aydın görmək olar ki, əgər Azərbaycan Demokratik Respublikası o vaxtadək çar Rusiyasının müstəmləkəsi olmuş Şimali Azərbaycan torpaqlarını birləşdirərək qüdrətli bir milli dövlət qurmaq üçün əməli bir addım ata bilmişdirsə, ikinci dəfə müstəqillik qazandıqdan sonra keçən qısa müddətdə ölkə xəyanətkar və səriştəsiz rəhbərlərin yarıtmaz idarəçiliyi ucbatından elə hala salınmışdı ki, artıq söhbət onun parçalanaraq qonşu dövlətlər arasında bölüşdürülməsindən, beləliklə də, Azərbaycan xalqının müstəqillik arzusunun birdəfəlik dəfn olunmasından gedirdi.

Hər bir görkəmli şəxsiyyətin, dövlət xadiminin böyüklüyü, müdrikliyi həm də onunla ölçülür və qiymətləndirilir ki, həmin rəhbər xalqa xidmətdən güc alan, milli mənafeləri hər şeydən üstün tutan, bacarıqlı, istedadlı, səriştəli, idarəetmə işində kifayət qədər təcrübəsi olan xadimləri öz ətrafında toplaya bilir və xarici siyasəti uğurla həyata keçirir. Bu, beynəlxalq praktikada özünü çoxdan doğrultmuş idarəçilik meyarı və prinsipi müstəqil dövlətin öz istiqlaliyyətini möhkəmləndirilməsi uğrunda mübarizəsi zamanı xüsusilə vacibdir. Məhz xalqın və dövlətçiliyimizin belə bir ağır məqamında Heydər Əliyev dühasının müqəddəs xilaskar missiyası ilə böyük siyasətə qayıdışı və xalqın istəyi ilə rəhbərliyə gəlişi düşmənlərimizin bədxah niyyətlərini həmişəlik ürəklərində qoydu. Böyük şəxsiyyətin siyasi müdrikliyi, uzaqgörən siyasəti sayəsində artıq əldən getməkdə olan dövlət müstəqilliyimiz, milli azadlığımız, bir sözlə, “imzalar içərisində imzamız” qorunub saxlandı. Ümumxalq sevgisi, inamı və dəstəyi ilə, demokratik yolla hakimiyyətə Heydər Əliyevin qayıdışı Azərbaycanda daxili ictimai-siyasi sabitliyin yaradılması, tarazlaşdırılmış uğurlu xarici siyasət yeridilməsi, cəmiyyətdə demokratik prinsiplərin bərqərar olunması, hüquqi və dünyəvi dövlət quruculuğu uğrunda yorulmaz fəaliyyəti 20-ci əsrin son dövrü tariximizin ən şərəfli səhifələrini təşkil edir. Ümumiyyətlə, dövlət qurmaq xəşbəxtliyi yalnız güclü şəxsiyyət, qüdrətli lider yetişdirmiş xalqlara nəsib olur. Heydər Əliyev məhz belə bir nadir şəxsiyyət və alternativsiz fenomen şəxs kimi 20-ci əsrin sonlarında Azərbaycanı bəlalardan qorudu, onun suverenliyini mühafizə edib saxlaya bildi, sabitlik və təhlükəsizliyi qarant etdi, ölkəni firavanlığa doğru addımlayan, dünya birliyində layiqli yerini tutmuş bir dövlətə çevirdi. Belə ki, 1993-cü ilin iyununda Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişindən sonra cəmiyyətimizdə dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etdi. 20-ci əsrin sonlarına yaxın dövlət müstəqilliyini əldə etmiş Azərbaycan xalqı məhz Ulu Öndərimmiz Heydər Əliyevin rəhbərliyi altında milli varlıq və idrakın, özünüdərkinin ali təzahür forması olan müstəqil dövlət ideyasını gerçəkləşdirmişdir. Ulu Öndərimizin mənalı və şərəfli həyat yolunun hər bir parlaq səhifəsi xalqımızın yaxın tarixi keçmişi ilə ayrılmaz vəhdət təşkil edir.

Onun hakimiyyətə qayıdışından sonra ölkə problemlərinin həlli istiqamətində konkret addımlar atılmağa başladı. 1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsi nizami ordu quruculuğu və ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruru addım oldu. 1994-cü ildə çoxlarına əfsanə kimi görünən “Əsrin müqalivəsi” adlı kontraktı iqtisadi və strateji baxımdan misilsiz əhəmiyyətə malik oldu. 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaratdı. 1996-cı ildə “Torpaq islahatı haqqında” qüvvəyə minən qanunla torpaq üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət formaları bərqərar oldu. Prezidentimiz

İlham Əliyev demişdir: "Müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir. Biz hamımız bütün Azərbaycan xalqı gərək bundan sonra onun gördüyü işləri davam etdirək, genişləndirək, onun yolu ilə Azərbaycanı gələcəyə aparaq".

Ulu Öndərin rəhbərliyi altında neft sektoru ilə yanaşı, eyni zamanda, planlı iqtisadi sistemindən liberal bazar iqtisadiyyatına keçid üçün digər sahələrdə də genişmiqyaslı islahatlara başlanıldı. 1993-2003-cü illərdə sabit inkişaf yoluna qədəm qoymuş Azərbaycanın əldə etdiyi nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik tərəqqisi üçün möhkəm zəmin yaratdı. Ulu Öndərin əsasını qoyduğu inkişaf strategiyasını zamanın tələblərinə cavab verən yeni çalarlarla zənginləşdirərək uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin iqtisadi inkişafı daha da sürətlənmiş, özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması prosesində yeni uğurlara imza atılmışdır. Cənab İlham Əliyevin Azərbaycanın dövlət başçısı olaraq iqtisadi sferada həyata keçirdiyi siyasətin ən önəmli cəhətlərindən biri hər zaman sosialyönümlülük və qoyulan məsələlərin həllində iqtisadi aspektin mövcudluğu faktorunun ön plana çəkilməsidir. Bu mənada, Prezidentimizin ilk fərman və sərəncəmlarında ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər xüsusi yer tutur. Beləliklə, Azərbaycan iqtisadiyyatı obyektiv qanunauyğunluqları, mütərəqqi dünya təcrübəsini, bazar iqtisadiyyatı prinsiplərini tamamilə özündə ehtiva edən irimiqyaslı islahatlarla müşayiət olunmaqla, zamanın çağırışlarına cavab verən növbəti inkişaf mərhələsinə qədəm qoymuşdur.

İnkişafının sürətli dövrünü yaşayan Azərbaycan tarix üçün kifayət qədər qısa sayıla biləcək zaman kəsiyində böyük tərəqqi yolu keçmiş, qazandığı sosial-iqtisadi nailiyyətlərlə və bu sahədə nümayiş etdirdiyi artım tempinə görə nəinki regionda, həm də dünya coğrafiyasında lider mövqeyə yüksəlmişdir. Dünya iqtisadi sisteminə fəal inteqrasiya yolu seçən Azərbaycanın bu sahədə qazandığı müvəffəqiyyətlərini şərtləndirən mühüm cəhətlərdən biri də qloballaşma prosesindən irəli gələn meyarların ölkə reallıqları ilə məharətlə uzlaşdırılması, onların milli maraqları təmin edəcək uğurlu vəhdətinin yaradılması olmuşdur.

Bu kimi müvəffəqiyyətlərimizə misal olaraq, deyə bilərəm ki, "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikası yoxsulluğun azaldılması və davamlı inkişaf Azərbaycan Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikası əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Azərbaycan gəncliyi 2010-2015-ci illədə Dövlət Proqramı" və digərləri qlobal transformasiyalar dövründə ölkəmizin uğurlu siyasətinin təsdiqidir. Məhz bunun nəticəsidir ki, ötən illərdə zirvə nöqtəsinə çatan, əvvəlcə maliyyə, daha sonra isə iqtisadiyyatın real sektorunu bürüyən qlobal böhranın Azərbaycana təsirləri minimal xarakter daşımış, hətta ÜDM-də 9,3 % artım qeydə alınmışdı. Respublikamız 140-dək ölkə ilə diplomatik, 102-dən çox ölkə ilə ticarət əlaqəsi yaradıb, BMT, ATƏT, AŞ, İslam Konfransı Təşkilatı və başqa beynəlxalq təşkilatların üzvüdür. NATO və Avropa Birliyi ilə səmərəli və işgüzar əlaqələr qurulub, terrorçuluğa qarşı ümumdünya mübarizəsinin, ABŞ başda olmaqla yaradılmış koalisiyasının fəal üzvüdür. Müstəqil Azərbaycanın memarı Ulu Öndərimiz deyirdi: "İnanıram ki, Azərbaycan Respublikası 21-ci əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır".

Bunun və ümumilikdə, Azərbaycan iqtisadiyyatının qlobal maliyyə və iqtisadi böhrana qarşı dayanıqlılığının əsas səbəbi son illər Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf və radikal islahatlar strategiyası, toplanmış maliyyə-valyuta ehtiyatları hesabına iqtisadiyyatda yüksək dayanıqlıq potensialının yaradılması, dövlət başçısı tərəfindən vaxtında irəli sürülmüş səmərəli anti-böhran tədbirlərinin reallaşdırılması, o cümlədən, sahibkarlığa dövlət dəstəyi, real sektora investisiya qoyuluşları, manatın məzənnəsinin qorunub saxlanılması və s. addımlarla bağlıdır. Prezidentimizin "əsil siyasət konkret, real iş görməkdən ibarətdir"-amalı və bu prinsipin uğurlu nəticələri Azərbaycanın qarşıdakı illərdə də sürətli inkişafı və dinamik yüksəlişi üçün möhkəm zəmin yaratmışdır. Onun bu gün dünya miqyasında qazandığı böyük nüfuz, nəhəng dövlətlərin başçıları ilə bərabərhüquqlu tərəfdaş kimi danışıqlar aparması, xalqımızın həqiqətlərini uca səslə bəyan etməsi bir daha sübuta yetirir ki, Heydər Əliyevin dövlətçilik ideyaları və strategiyasının alternativi yoxdur və o, xalqımızı yeni-yeni uğurlara, zəfərlərə aparır.

Müstəqilliyimizin 20-ci ildönümünü qeyd edərkən qürur və iftixar hissi ilə deyə bilərik ki, bu gün Azərbaycan iqtisadi cəhətdən dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Möhtərəm Prezidentimizin dediyi kimi: "Azərbaycanda iqtisadi sahədə keçid dövrü artıq başa çatmışdır. Biz inkişaf etmiş ölkələrin sırasına daxil olmalıyıq və qarşımıza bu məqsəd qoyulubdur. Biz bu məqsədə çatacağıq".

**SEVİNC BABAYEVA**